**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

**AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A** **www.health.gov.az**
**Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95** **Elektron ünvan: office@health.gov.az**

14.07.2011 № 73

№-zə ____________________

# ƏMR

**«Respublikada İİV-infeksiyası üzrə**
**könüllü məsləhət və müayinə məntəqələrinin**
**yaradılması barədə»**

QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fondun "Yüksək riskli əhali qrupları və vətəndaş cəmiyyətinin iştirakı ilə milli imkanların genişləndirilməsi, profilaktika və müalicənin gücləndirilməsi vasitəsilə Azərbaycanda İİV/QİÇS epidemiyasına qarşı cavab tədbirlərinin mükəmməlləşdirilməsi" layihəsi çərçivəsində respublikada İİV-infeksiyası üzrə profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə

## ƏMR EDİRƏM:

1. Respublikanın şəhər və rayonlarının bu əmrin əlavəsində göstərilən tibb müəssisələrində insanın immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqələri yaradılsın.

2. Əmrin əlavəsində göstərilən şəhər və rayonların tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

2.1. İİV-infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqələrinin yerləşdirildiyi struktur bölmələrin rəhbəri həmin məntəqələrin mütəxəssisləri təyin edilsin;

2.2. təyin olunan mütəxəssislərin təlimlərdə iştirakı üçün Respublika QİÇS-lə Mübarizə Mərkəzinə göndərilməsi təmin edilsin;

3. Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru H.Qədirovaya tapşırılsın ki, Respublika QİÇS-lə Mübarizə Mərkəzinin bazasında QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fondunun dəstəyi ilə İİV-infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqələrinin rəhbərliyi üçün "İİV/QİÇS-lə bağlı könüllü məsləhət və müayinə" mövzusunda təlimlər keçirilsin..

4. Nəzərə alınsın ki, İİV- infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqələrinin fəaliyyətinin maliyyələşdirilməsi və mütəxəssislərin təlimlərlərdə iştirakı ilə bağlı bütün xərclər QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fond tərəfindən həyata keçiriləcək.

5. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə həvalə edilsin.

**Nazir müavini** **Nigar Əliyeva**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
14 iyul 2011-cu il tarixli
73 №-li əmrinə əlavə

# Yaradılan İİV-infeksiyası üzrə könüllü məsləhət və müayinə məhtəqələrinin Siyahısı

<table>
<tr><th>№</th><th>Tibb müəssisələri</th><th>Məntəqədə rəhbərlik edən mütəxəssislər</th></tr>
<tr><td>1</td><td>Respublika QİÇS-lə Mübarizə Mərkəzi</td><td>Anonim məsləhət və müayinə üzrə həkim</td></tr>
<tr><td>2</td><td>Respublika Narkoloji Mərkəzi</td><td>Həkim - narkoloq</td></tr>
<tr><td>3</td><td>Respublika Perinatal Mərkəzi</td><td>Həkim- ginekoloq</td></tr>
<tr><td>4</td><td>Respublika Dəri-zöhrəvi Dispanseri</td><td>Həkim- dermatovenereloq</td></tr>
<tr><td>7</td><td>Bakı şəhəri Narkoloji Dispanser</td><td>Həkim -narkoloq</td></tr>
<tr><td>5</td><td>Bakı şəhəri 1№-li Dəri-zöhrəvi Dispanseri</td><td>Həkim -dermatovenereloq</td></tr>
<tr><td>6</td><td>Baki şəhəri 2№-li Dəri-zöhrəvi Dispanseri</td><td>Həkim- dermatovenereloq</td></tr>
<tr><td>8</td><td>Baki şəhəri 4№-li vərəm əleyhinə dispanseri</td><td>Həkim- ftiziatr</td></tr>
<tr><td>9</td><td>Baki şəhəri İİV diaqnostika laboratoriyası</td><td rowspan="15">Laboratoriyanın müdiri</td></tr>
<tr><td>10</td><td>Sumqayıt şəhəri İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>11</td><td>Sumqayıt şəhəri narkoloji dispanser</td></tr>
<tr><td>12</td><td>Sumqayıt şəhəri dəri-zöhrəvi dispanseri</td></tr>
<tr><td>13</td><td>Gəncə şəhəri İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>14</td><td>Gəncə şəhəri narkoloji dispanser</td></tr>
<tr><td>15</td><td>Gəncə şəhəri dəri-zöhrəvi dispanseri</td></tr>
<tr><td>16</td><td>Şirvan şəhəri İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>17</td><td>Mingəçevir şəhəri İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>18</td><td>Salyan İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>19</td><td>Quba İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>20</td><td>Yevlax İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>21</td><td>Şəki İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>22</td><td>Lənkəran İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>23</td><td>Şamaxı İİV diaqnostika laboratoriyası</td></tr>
<tr><td>24</td><td>Ağcabədi Mərkəzi rayon Xəstəxanası</td><td rowspan="23">Həkim – narkoloq,<br>dermatovenereloq,<br>yaxud həkim- infeksionist</td></tr>
<tr><td>25</td><td>Ağsu Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>26</td><td>Astara Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>27</td><td>Ağstafa Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>28</td><td>Bərdə Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>29</td><td>Biləsuvar Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>30</td><td>Cəlilabad Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>31</td><td>Şabran Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>32</td><td>Gədəbəy Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>33</td><td>Goranboy Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>34</td><td>Göyçay Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>35</td><td>Hacıqabul Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>36</td><td>Xaşmaz Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>37</td><td>İmişli Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>38</td><td>Kürdəmir Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>39</td><td>Qazax Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>40</td><td>Qobustan Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>41</td><td>Qəbələ Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>42</td><td>Masallı Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>43</td><td>Sabirabad Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>44</td><td>Şəmkir Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>45</td><td>Yardımlı Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>46</td><td>Zərdab Mərkəzi rayon Xəstəxanası</td></tr>
<tr><td>47</td><td>Zaqatala Mərkəzi rayon Xəstəxanası</td><td>Seroloji laboratoriyanın müdiri</td></tr>
</table>